# Şəhid Aslan Süleyman oğlu Rzayev...

**Azərbaycan tarixən düşmənə sipər olan oğulları ilə öyünüb. Bakının Maştağa kəndi də hər dəfə tarixə çevrilən igid oğullarını şəhid verib. Bu gün də Azərbaycan anaları qan ağlayır, bacılar başına qara bağlayır. Bu gün də oğul dərdindən beli bükülən atalarımız göz yaşları içində boğulur. Bu gün də bir üzü qız, bir üzü gəlin analar körpə balalarını ovutmağa söz tapmır.**

Maştağanın hansı küçəsindən keçirsən, şəkillərdən boylanan gülümsər çöhrələr səni çağırır. Maştağa Şəhidlər Xiyabanında daş məzarlardan boylanan gözəl balalarımızın haqqında yazmaq, tarix olan övladlarımızı gələcək nəsillərə tanıtdırmaq şərəfli olduğu qədər də ağırdır. Şəhid qapısını döyməyin ağırlığı hələ 90-cı illərdən mənə tanışdır...

Bu dəfə Maştağa şəhidlərindən Şəhid Aslan Rzayevin atası Süleyman kişinin qapısını döydük. Bizi Aslanın bacısı və həyat yoldaşı Vəsilə qarşıladı. Aslanın anası evdə olmadığından, bacısı ilə danışmaq istədik. Firuzə danışmaq istəmədi, dedi ki: "Aslan mənimlə nə danışıb içimdə qalıb. Heç kimə deyə bilmərəm...".

Gəlinin anası da qonaq gəlmişdi. Elə ilk söhbətimiz onunla oldu. Aslan haqqında kürəkəni kimi deyil, doğma balası kimi danışdı. Sonra qızına baxdı. Gəlişimizin məqsədini biləndən kövrələn Vəsilə özünü ələ alıb dedi: "Aslan 1995-ci il yanvarın 21-də Maştağa qəsəbəsində dünyaya gəlib, qəsəbədəki 108 saylı orta məktəbdə təhsil alıb, 2012-ci ildə məktəbi bitirib Azərbaycan Texniki Universitetinin avtomatika və kompüter texnikası fakültəsinə daxil olub. Mən onu əvvəllər heç görməmişdim. Aslan evə kömək etmək üçün işləyirdi, ona görə çox dərs buraxırdı. Onu ancaq III kursda tanıdım. Məni istədiyini deyəndə, təəccübləndim. Dedi ki, mən dərsə gəlməsəm də, həmişə səni izləmişəm. Biz Salyandanıq, Aslan Maştağadan, deyə bir qədər tərəddüt etdim. IV kursda nişanlandıq. Universiteti bitirdik. 2016-cı il iyulun 25-də hərbi xidmətə çağrıldı. Ağcabədi rayonunun Qiyaməddinli kəndindəki hərbi hissədə xidmət edirdi. 2018-ci ilin yanvarında hərbi xidmətdən ayıdandan sonra onlar bizə gəldilər, 2018-ci il mayın 14-də nişanımız oldu, avqustun 26-da bacısının ad günündə toyumuz oldu, 2019-cu il mayın 21-də Altay dünyaya gəldi. Ailəcanlı idi, bizi hər yerə aparırdı. Hələ müharibə həmişə olmamış deyirdi: "Sən Aslanın arvadısan, başını dik tut"...

Bayaqdan bəri Vəsilənin gözlərində güclə saxladığı göz yaşı damlaları yanağına süzüldü. Əli ilə üzünü qapadı. Biz də susmağa məcbur olduq...

Vəsilə bizə Aslanın diplomunu da göstərdi. Dərs buraxdığına görə diplom almayan Aslana şəhid olandan sonra ATU Elmi Şurasının 21 fevral 2021-ci il tarixli iclasının qərarı ilə "FƏXRİ DİPLOM" verilmişdir...

Otaqdakı dərin sükutu Aslanın Atası Süleyman kişinin gəlişi pozdu. Bizimlə səmimi görüşdü, üzündə təbəssüm var idi. Ondan Aslan haqqında danışmasını xahiş etdikdə, sanki ildırım çaxdı, buludlar ağladı, amma Süleyman kişi özünü sarsılmaqdan saxladı. Dedi: "Aslan məktəbdə oxuyan vaxtdan vətənpərvər idi. Şeiri çox sevirdi, çoxlu şeir əzbərləmişdi. Əslində bu bizim ailədə var, elə mən özüm də şeir həvəskarıyam. Aslan da evdə həmişə kitab görüb, şeir eşidib. Uşaqlıqda çox zirək olub, bir yaşında həm danışıb, həm gəzib. 7-8 yaşında güləşə gedib. Futbol oynamağı da sevirdi. Gecə 10-da işdən gəlirdi, gedib futbol oynayırdı. Rəqsi də sevirdi. Məktəbdə də əlaçı olub, yaxşı qiraətçi idi, gözəl qəzəllər deyirdi. Texniki sahəyə həvəsi olub, riyaziyyatı yaxşı bilirdi.

Ən böyük arzusu idi ki, işğal altında olan torpaqlarımız azad olsun. Elə səfərbərlik olan kimi getdi. 2020-ci il sentyabrın 29-da çağırış vərəqəsi gəlmişdi. Aslan Milli Orduda əsgərlikdə çavuş, manqa komandiri olub, müharibə başlayanda sentyabrın 30 da getdi, 5 gün Nasosnuda saxladılar, oktyabrın 5-də Füzuliyə göndərdilər. Cəbrayıl, Xocavənd uğrunda döyüşlərdə olub. 8 gün vuruşub, sonra Hadrutda şəhid olub. Kimlər ki, əsgərlikdə ön cəbhədə olub, onları səfərbərlik zamanı ilk çağırdılar. Aslan da əsgərlikdə yaxşı atıcı olub, hərbi hissənin birincisi olub, ona görə də onu manqa komandiri qoymuşdular. Manqa komandiri Elnurla rabitə komandiri baş leytenant Cahangir gəlmişdilər, onlar dedilər ki: "Hadruta daxil olduq, əvvəldə biz gedirdik, çatanda gördük ki, Aslanla Əli artıq oradadır, 4-5 erməni də öldürüblər". Həmin döyüşdə şəhid olub, neçə gündən sonra Hadrut alınıb...

Aramızda pərdə var idi. Sirrini anasına deyərdi, çətin vəziyyətlərdə söhbəti mənimlə olardı. Gedəndə ailəsinə vəsiyyət edib, "Altayı kişi kimi böyüdərsən" deyib, onlar başa düşməyiblər. Gəlin ağlayıb, deyib ki, niyə elə deyirsən, məgər gəlməyəcəksən. Deyib ki, zarafat edirəm. Əvvəldən deyib ki, mən elə bir şey edəcəyəm ki, siz mənimlə fəxr edəcəksiz...".

Süleyman kişi susdu. Artıq nə deyəsiydi. Bir oğul böyütmüşdü, yeganə oğlunu Vətən uğrunda qurban vermişdi. Nə qədər fəxrlə danışsa, sinəsindəki oğul dağı közərirdi. O da bilirdi ki, vətənpərvər oğullar elə bu gün üçün böyüdülür, Vətən darda olanda igid oğullar döyüşə getməlidir. O da sevinirdi ki, torpaqlarımız alınıb, Vətənimiz bütövləşir. Amma bu fəxarətin, bu sevincin bir ucundan ağır bir






kədər sallanırdı. Oğul istəyir bu ağırlığa tab gətirsin. Bu müharibədə təkcə oğullar şəhid olmadı. Oğul dağına tab gətirən atalar da, analar da dirigözlü şəhidlərimizdir...

Aslanın anası Hafizə ilə başqa bir gün görüşdük. Elə ilk anda oğlunun şəhidliyindən danışdı: "Rəşadın şəhid xəbəri gəlib, gediblər gətirməyə, orada deyiblər ki, bir də Rzayev Aslan var. Şəklini istədilər, göndərdik, təsdiqlədilər ki, odur. Sonra atası getdi. Demişdi ki, baxım, icazə veriblər, son dəfə görüb...".

Hafizə xanımdan Aslanın uşaqlığından danışmasını xahiş etdik. Xatirələr onu keçmişə apardı, Aslanlı günlər kino lenti kimi gözü önündən keçdi. Elə bil özü də gəncliyinə qayıtdı. Aslanın körpəliyini xatırladı: "diribaş uşaq idi. Nə deyirdin yadında qalırdı. Yemək yeyəndə nağıl danışardım, nağıl olmasa yeməzdi. Danışdığım nağılların hamısı yadında qalardı. Bəzən olurdu, vaxt tez keçsin deyə nağılı ixtisar edib danışırdım. Hansı nağılı yarımçıq danışsaydım, o saat irad tutardı, deyərdi ki, bunu demədin. Bir dəfə "Göyçək Fatma"nı danışırdım, tez yekunlaşdırmım. Dedi ki, ana, bəs heç Fatmanı təndirə salmadın ki...

Qaynım oğlunun yazı stolu var idi, dedi ki, mənimçün də yazı stolu al. Dedim ki, sən balacasan, hələ qalıb, böyüyəndə sənə də yazı stolu alarıq. Dörd yaşı var isi, əl çəkmədi, axır bir stol düzəltdik. Həmişə gedirdi Çingizin yanına, onun yazdıqlarını yazırdı. Məktəb vaxtı gəldi getdi, atası apardı. İmtahan edirdilər. Dedim nə oldu, Aslan, imtahan necə oldu, müəllim bəyəndi səni? Dedi ki, eh, hamı uşaq şeiri deyirdilər. Soruşdum ki, bəs sən nə dedin? Dedi ki, mən Abbas Səhhətin "Vətənim" şeirini dedim. Vətənpərvərlik içindən gəlirdi...

Mənim də qəzəl dəftərim var idi, o zaman Nizaminin, Füzulinin, çox şairin kitablarını almışdım. Mən oxuyurdum, Aslan da əzbərləyirdi. O vaxt işıqlar tez-tez sönürdü. Şam yandırırdım, kitab oxuyurdum. Aslan da şam işığında dərs oxuyurdu. Mən də Səməd Vurğunun, Süleyman Rüstəmin poemalarını əzbər bilirdim, Aslan da əzbərləyirdi. Bir dəfə müəllim deyib ki, ana şeiri hazırlayın. Mənim də Cabbarlının "Ana" şeiri xoşuma gəlirdi. Onu verdim Aslan əzbərlədi. Dərsi bir dəfə oxusaydı, yadında qalırdı. Enerjili uşaq idi, güləşə gedirdi, texniki fənlərə həvəsi daha çox idi. Məktəbdən heç vaxt şikayət gəlməzdi...

Sevdiyi qız olduğunu bilirdik, ailə qurmaq istəyəndə, atası dedi ki, əvvəl yoxlayacağam, sonra gedəcəyik. Dedi nişanlayın məni, əsgərliyə arxayın gedim. Biz də öyrəndik, gördük doğrudan da yaxşı ailədəndir...".

Hafizə xanım gəlininin mənsub olduğu ailə haqqında o qədər xoş sözlər dedi ki, fikrimdən "Kaş hamı belə olsun" keçdi. Yenidən müharbə möpvzusuna qayıtdıq. Hafizə xanımın üzünü buludlar alsa da, özünü saxladı yağmadı, gözünün yaşını içinə axıtdı. Özünü dərdə tabe etmədi, dərdi, kədəri sanki ayağı altına qoyub, əsl igid anası kimi bir qədər susub yenə qürurla, fəxarətlə danışmağa başladı: "Aslan tarixi yaxşı bilirdi, Almaz İldırımın "Qara dastan" kitabındakı şeirləri əzbər bilirdi.

Kimsə bilməz Tanrı dağın yaşını,
Duman almış altayların başını.

Bu şeiri deyəndən sonra əlavə edərdi ki, biz altaylardanıq. Elə oğlunun da adını ona görə Altay qoydu. Vətənpərvərlik uşaqlıqdan var idi onda. Səfərbərlik olan kimi getdi. Azərbaycanın xəritəsinə o qədər baxmışam ki, bəlkə heç coğrafiya müəllimləri o qədər baxmayıb. Baxırdım ki, hara alınıb, döyüş harda gedir. Özü cəng vururdu. Deyirdi ki, siz zəng vurmayın. Bəzən gündə iki dəfə, bəzən iki gündən bir zəng vururdu. Dedi ki, Beyləqandan çıxdıq, Füzuliyə gedirik, hər şey yaxşıdır. Deyirdim, Aslan, "Ayətəl-kürsi"ni oxuyun, bildiyiniz duaları oxuyun, özünüzü qoruyun. Əsgər yoldaçı deyirdi ki, elə vaxt olurdu ki, bir gündə yüz dəfə "Kəlmeyi-şəhadət" demişik. Səhər 9-un yarısı 9-10 oktyabrda dedi ki, döyüşə gedirik, dua edin. 11-12-də döyüşə gedirdilər, amma dedi ki, qonaq gedirik, başa düşdük. Atası soruşdu ki, hardasız, dedi ki, ata heç nə demə. Atasının gözləri doldu, dedi hardasız, Xarı bülbülə, yəni Şuşaya çatmısız, dedi ki, ata qarşısındayıq. Bu son danışığımız idi, 13-də şəhid oldu. Sonra döyüş yoldaşı dedi ki, Hadrutdan baxanda Şuşa görünür, ona görə deyib ki, qarşısındayıq...

Bir gün zəng edəndə bacısını istədi, nə qədər danışdı. Çox mehriban idi. Sirri-söhbəti bacısı ilə idi. Hərdən deyirdi ki, gərək sən oğlan olaydın. Demişdi ki, mənə bir şey olsa, üsyan eləmə.

Kinonu çox sevirdi.Tələbə yoldaşları ilə əsgərlikdə bir yerdə olublar. Danışırlar ki: " Axşam dedik hərə bir film danışsın. Aslan elə danışdı ki, elə bilirdik ki, kinoya baxırıq".

Maşın yarışlarının həvəskarı idi. Futbolu çox sevirdi. İşdə futbol komandaları var idi, oynayırdı. Hücumçu idi...

Aslan da, yoldaşı da "Kontakt-Homm"da işləyirdilər. İşdən gəlirlər, bizi tək qoymurlar. İşdən müharibəyə 97 nəfər gedib, hamıdan axırda Aslan gedib, hamı qayıdıb, təkcə Aslan şəhid olub. Onun adına işdə guşə açıblar. "Aslan ürəkli" adlı döş nişanı hazırlayıblar, döyüşdə iştirak edənlərə veriblər. Divara lövhə vurublar.

Prezidentin sərəncamlarına görə Aslana ölümündən sonra "Füzulinin azad olunması", "Xocavəndin azad olunması", "Vətən uğrunda" medalları ilə təltif olunub...".

Həyətdən çıxanda elə bil üstümüzdən bir dağ götürüldü. Küçədə dərindən nəfəs aldıq. Sonra soraqlaşıb Aslanın ibtidai sinif müəllimi Səltənət müəllimin evini tapdıq. Səltənət müəllim qısa danışdı: "Aslan çox çalışqan, tərbiyəli, aktiv uşaq idi. Nə soruşsan, suallara əhatəli cavab verirdi. Tədbirlərdə iştirak edirdi, yaxşı şeir deməyi vardı. heç bir tədbir onsuz olmazdı. Məktəbi yaxşı qiymətlərlə bitirdi, ali məktəbə daxil oldu. Məktəbin fəxr etdiyi şagirdlərdən idi. Bütün fənləri yaxşı oxuyurdu, riyaziyyatı lap yaxşı bilirdi.

Eşidəndə heç inanmağım gəlmədi, dedim ki, kaş yalan olaydı...

Mən Aslanın ibtidai sinif müəllimi olmuşam, uşaq vaxtını daha yaxşı xatırlayıram. Siz onun yuxarı sinif müəllimləri ilə görüşün, onlar sizə daha çox şey danışa bilərlər. Məktəbdə Aslanla bağlı guşə yaradılıb. Şəhidlərimizi həmişə anırıq. Onlar bizim qəlbimizdədir. Allah hamısına rəhmət eləsin..."

Biz də deyirik Allah rəhmət eləsin, ruhları şad olsun. Allah ailələrinə səbr versin...

***Sona XƏYAL***